













## "Qəhvə rəngi"

Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı, "Cofe planet" şirkətinin dəstəyi ilə Muzey Mərkəzinin Sərgi Qalereyasında keçirilən bu sərgi həm də nazirliyin böyük "art-layihə"si çərçivəsində müasir rəssamlığın inkişafına bir təkandır.

Sərginin ekspozisiyasına rəngkarlıq, qrafik, heykəltəraşlıq, batika, instalyasiya əsərləri və müəllif kuklalar daxildir.

Sərgidə 100-dən çox tematik rəsm əsərininin nümayişi ilə yanaşı tanınmış dizayner Nadya Tazıyevanın kofe rəngində geyim kolleksiyası da maraqla qarşılandı.

Bakıdakı "Art Villa" qalereyasında – Azərbaycanın Əməkdar rəssamı, YUNESKO Rəssamlar Federasiyasının üzvü, Beynəlxalq "Sülh səfiri" Əşrəf Heybətovun "Cənub şəhər və insanlar" adlı fərdi sərgisində Bakı və onun insanlarından bəhs edən 30-a yaxın əsəri nümayiş olundu.



# Media kəndində Mədəniyyət və Turizm Mərkəzi

"Bakıda keçirilən I Avropa Oyunları ilə əlaqədar "Media" və "Atletlər" kəndində Mədəniyyət və Turizm Nazirliyinin dəstəyilə Mədəniyyət və Turizm Mərkəzi yaradıldı. Mayın 29-dan fəaliyyət göstərən mərkəzin əsas işi burada yerləşdirilən xarici KİV nümayəndələrinə Azərbaycanın turizm potensialını təbliğ etmək, paytaxt Bakı ilə yanaşı, bölgələrdə inkişaf etmiş turizm infrastrukturu haqda məlumatlar vermək idi



Hər iki mərkəzdə Azərbaycan Turizm və Menecment Universitetinin tələbələri müraciət edən turistlərə müxtəlif xarici dillərdə cavab verir, onları maraqlandıqları məkanlar haqqında məlumatlandırırdılar.

Mərkəz səhər saat 8:00-dan 11:00-a, axşam saat 18:00-dan 22:00-dək xidmət göstərirdi. Burada ziyarətçilərə Azərbaycan, rus və ingilis dillərində hazırlanmış 18 adda buklet-broşur təqdim olunurdu. Bakı şəhəri, Azərbaycanın regionları, turizm növləri, muzeylərimiz, teatrların gündəlik repertuarı, konsert müəssisələrində baş tutacaq proqramlar və s. haqda şifahi məlumatlar verilir.

Gün ərzində təkcə Mədəniyyət və Turizm Mərkəzinə 100-ə yaxın xarici turist yaxınlaşırdı. Mərkəzdə turizm təbliğatının əyani şəkildə aparılması üçün promo video-çarxların yayımlandığı monitorlar da quraşdırılmışdı.



Monitorlarda Azərbaycan xalq musiqiləri, muğamlarımız fasiləsiz olaraq səsləndirilir, ölkəmizin tarixindən, milli mədəniyyət, musiqi, mətbəxi və turizm imkanlarından bəhs edən videoçarxlar göstərilirdi. Hər iki mərkəzdə "City Sightseeing Baku"nun təşkilatçılığı ilə həyata keçirilən şəhər turu haqda da məlumat verilir, mərkəzdə, həmçinin, xarici ziyarətçilər audio-bələdçi qulaqcıqlar vasitəsilə 6 dildə təsvir olunan Azərbaycan turizm portal - www.azerbaijan.travel saytını touch-screen vasitəsilə həm seyr edə, həm də məlumatları istədikləri dildə eşidə bilirdilər. Mərkəzdə Azərbaycan Xalça Muzeyinin təşkilatçılığı ilə yaradılmış "Azərbaycan el sənəti" sərgisində xalça, xalça məmulatları, bədii metal, tikmə, milli geyim nümunələrini əks etdirən fotoşəkillər nümayiş olunurdu.

# ƏCNƏBİ MEDİANIN TƏƏSSÜRATLARI




## Azərbaycan paytaxtı ənənəvi Şərq və Qərb elementlərini özündə birləşdirən əsrarəngiz, qeyri-adi bir şəhər obrazıdır!

Türkiyənin məşhur Anadolu Agentliyinin foto-jurnalisti **Cem Öksüz:**



***"Bakıya bundan öncə də bir neçə dəfə gəlmişəm. Şəhər çox dəyişib, gözəlləşib. Mən Bakını doğma İzmirimə bənzədirəm. Amma İçərişəhərin gözəlliyi daha cəlbedicidir. Bu məkan ölkənizin nə qədər qədim tarixə malik olduğunun sübutudur. Bu yığcam "içəri" şəhər bizdə daha gözəl təəssüratlar oyatdı və mən onun şəkillərini ayrıca instagram səhifəmə yerləşdirmişəm. İnsanlar Bakıya, xüsusilə İçərişəhərə o qədər maraq göstərdi ki... Hətta mənə zəng edib maraqlananlar, Bakının memarlıq quruluşunu Londona bənzədənlər də oldu. Mən Bakıya valeh oldum və istədim ki, buranı başqaları da görsün. Avropa Oyunlarında çox gərgin işləməyimə baxmayaraq onları sosial şəbəkədə yerləşdirməyə müvəffəq oldum. Hətta mənə, sən belə bir şəhərdə olduğun üçün xoşbəxt insansan - deyə, yazanlar da var. Düşünürəm ki, bu gedişlə Bakıya turist axını çoxalcaq".***

Türkiyənin İstanbul şəhərinin NTV Sport Televeziya kanalının müxbiri **Mehmet Sevinc:**



***"Mən London Yay Olimpiya Oyunlarında da iştirak etmişəm və bu oyundakı təşkilat səviyyəsi, demək olar, o oyundakının eynidir. Düzü, biz, Bakıda idmanla bağlı tədbirin belə yüksək səviyyədə keçiriləcəyini gözləmirdik. Təşkilatçılıq, könüllülər, insanlarınız xoşuma gəldi. Paytaxtınız isə o qədər gözəldir ki, sadəcə valeh oldum! Türkiyəyə döndükdə, bütün dostlarıma, "Bakıya gedin və onu görün"- deyə, söyləyəcəm. Bizim yaşadığımız "Media kəndi" isə elə yüksək səviyyədə qurulub ki, insanı məftun və məmnun edir. İndi bir arzum var; kaş ki, media kəndində qaldığım mənzili mənə verəydilər. Bu evin pəncərəsi gözəl mənzərəyə açılır və o qədər rahatdır ki, heç ayrılmaq istəmirəm".***

Rusiya Boks Federasiyasının saytında jurnalist kimi çalışan **Boris Valiyev:**



***"Bu günə qədər 9 dəfə Olimpiya Oyunlarında olmuşam. Təşkilatçılıqda heç bir fərq görmürəm. Bilirsiniz, bu oyunlar ərəfəsində, elə indi də, tez-tez belə bir sual verilir: "Avropa Oyunlarının keçirilməsi vacib idimi?" Buna hər kəsin özünəməxsus cavabı var. Məsələn, məncə dünya idman aləmində Asiya Oyunları, Amerika Oyunları varsa, bu niyə olmasın? Bu siyasi konfliktlər dövründə Avropa Oyunları çoxdan olmalı idi - biz hətta bir qədər gecikmişik. Qonaqpərvər Bakının ilk Avropa Oyunlarına ev sahibliyi etməsi ilə ölkələr, insanlar arasında da daha gözəl münasibətlər quruldu. Axı idman həm də sülh deməkdir. Hər gün yarışlar haqqında saytımıza məlumat göndərirəm. Oyunlar bitdikdən sonra öz təəssüratlarımla bağlı məqalə yazacağam. Özünüz də görürsünüz ki, burada jurnalistlərə işləmək üçün bütün lazımi şərait yaradılıb. Təcrübəli idman jurnalisti kimi deyərdim ki, Bakı bu böyük idman tədbirinin öhdəsindən layiqincə gəlir".***

ABŞ-ın "Getti İmages" kompaniyasının fotojurnalisti **Tom Peniqton:**



***"Məsələn, üzgüçülük hovuzu çox xoşuma gəldi. Biz burada böyük heyətlə təmsil olunuruq. Jurnalist kimi də işləmək asandır; çünki bütün lazımi şərait yaradılıb. Bu günə qədər dünyanın çox ölkəsində olmuşam. Düşünürdüm ki, "Bakı Şərq şəhəridir" - amma biz onun kosmopolit olduğunu gördük. Ölkənizə ilk dəfədir gəlirəm. Həmkarlarımla qərara aldıq ki, Bakı - səyahət etmək üçün çox maraqlı şəhərdir. Amerikaya qayıtdıqdan sonra Bakının fotosesiyasını nəşr edəcəyəm".***

Monteneqronun "PİNK-M" televiziyasının idman redaktoru **İqor Çulatiç:**



***"Nəqliyyat, Media kəndi, arena, idman məkanları daxil olmaqla, təşkilatçılıq çox yüksək səviyyədə qurulub. Könüllülər bizimlə olduqca gözəl davranırlar. Bu mənim Bakıya ikinci səfərimdir. Birinci dəfə buraya ötən il - idman jurnalistlərinin konqresinə gəlmişdim. Şəhər çox gözəldir. Nadir memarlıq üslubunda tikilmiş binalar diqqəti cəlb edir. İndi dayandığımız bu məkan o qədər əsrarəngizdir ki! Qarşıda görünən Bayraq Meydanı Kompleksi, onun üzərində yellənən Azərbaycan bayrağı, Xəzər dənizi, "Kristal Hall" - bütün bunlar çox möhtəşəmdir və maraqlı harmoniya təşkil edir. Bir sıra Balkan ölkələri ilə birlikdə keçmiş sosialist dövlətinin - Yuqoslaviyanın tərkibində yaşayan insanlar Azərbaycan haqqında məlumatlıdırlar. Ölkənizin tarixi, üzləşdiyi Qarabağ münaqişəsi haqqında da bilirlər. Avropa Oyunlarında 25 atletimiz iştirak edir. Müntəzəm şəkildə ölkəmizə xəbərlər, reportajlar hazırlayıb göndəririk. Əminəm ki, bizim reportajlarımızdan sonra Monteneqroda Azərbaycanı - xüsusilə gənc nəsil - daha çox tanıyacaqlar".***

Fransanın "Sport1" televiziyasında çalışan **Annek Satler**in Atəşgaha getmək fürsəti olub:



***"Bu sirli-sehirli, nadir abidəni ziyarət etmək insanda o qədər dərin təəssürat yaradırdı ki... Mən Qobustanı və palçıq vulkanlarını da görmək istərdim. Qayaüstü rəsmlər həmişə mənə maraqlı gəlib. Bakı və onun insanları da xoşuma gəldi. Bura gəlməzdən öncə təsəvvür etməzdim ki, Bakı kosmopolit şəhərdir. Elə onu maraqlı edən də bu xüsusiyyətidir. Vətənimə döndükdə hər kəsə deyəcəm ki, sürətlə dəyişən Bakı maraqlı və gözəl şəhərdir. Onlara tövsiyəm bu olacaq: əgər şərq və qərb ənənələrini özündə yaşadan əsrarəngiz məkan görmək istəyirsinizsə, mütləq Bakıya gedin. Mən özüm də bura yenidən gəlmək istərdim. Oyunların çox yüksək səviyyədə təşkil olunmasına, idmançılar və məşqlər üçün yaradılan şəraitə heyranam. "Bakı - 2015" ilk Avropa Oyunlarının möhtəşəmliyi hələ uzun illər idmançılara müsbət emosiyalar bəxş edəcək".***

Serbiyadan olan media meneceri **Duşan Jivkoviç** isə ötən ilin avqust ayından Bakıda çalışır:



***"Bakı maraqlı, müasir və tarixi memarlığı ilə birlikdə gözəldir! İnsanları olduqca qonaqpərvər, istiqanlıdır. Oyunlara hazırlıq çox yaxşı gedirdi. Adətən başqa ölkələrdə belə tədbirlərə hazırlıq 7-8 il çəkir. Azərbaycan isə bunun öhdəsindən qısa müddətə - iki il yarıma gələ bildi. Dövlət başçısı İlham Əliyevin dəstəyi, birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə Bakı Avropa Oyunları üzrə Əməliyyat Komitəsinin qısa müddətdə qurub başa çatdırdığı bu iş Bakı üçün ən böyük nailiyyətlərdən biridir. Bakıdakı mərasim Olimpiya Oyunları səviyyəsində idi, şoular isə xüsusilə unikal idi. Azərbaycan mədəniyyətini ən müxtəlif aspektlərdən əks etdirən musiqi, rəqs, xalça, od, Qobustan və digər elementlər olduqca təsirləndirici idi.***
***Oyunlar zamanı media əlaqələrində heç bir çətinlik yaşanmadı, sürətli internet vasitəsilə informasiyalar bütün dünyaya yayıldı. Bu layihənin həyata keçirilməsi heç də asan deyil, amma ölkəniz bunu elə açılış mərasimi ilə sübut etdi".***

Rusiya Milli Olimpiya Komitəsinin mətbuat attaşesi **Konstantin Vıbornov:**



***"Mən vacib bir məqamı vurğulamaq istərdim: Elə idman növləri var ki, onlar Olimpiya Oyunları proqramına daxil deyil və onları məhz bu Avropa Oyunlarında görəcəyik. "Bakı - 2015" Avropa Oyunları ilə bağlı artıq dördüncü dəfədir ki, Bakıya gəlirəm. Bakı, öz tarixini qorumaqla ən müasir bir şəhərə çevrilib. Son vaxtlar çoxlu sayda böyük binalar, hotellər, idman məkanları tikilib və şəhər, yaxşı mənada, çox dəyişib. Müasir Avropa şəhərinə çevrilən Bakıda tarixlik və ənənə bir yerdə cəmlənib. Belə bəlli olur ki, bu sahəyə xüsusi diqqət ayrılır, bunu akkreditasiya olunan bütün ölkələrin mətbuat nümayəndələri görürlər. Buradan ölkəmizə göndərmək üçün çox mövzular var, düşünürəm ki, bu tədbir - böyük idman bayramı - uğurla başa çatacaq".***

ƏCNƏBİ MEDİANIN TƏƏSSÜRATLARI